# Elm və həyat nakamı

*Mənim bəxtim nağıllarda olduğu kimi, həmişə üçdən gətirib. Həyatımın da üç mərhələsi olub. Axırıncısı ən uğurlusu, 1988-ci il xalq hərəkatı ilə bir vaxtda başlanıb...*

***Aydın Məmmədov***

Yer üzünə saysız-hesabsız insan gəlib-gedib və dünyanın bu karvanı yenə öz hərəkətindədir... Hərəyə də bir ömür bəxş edilib - uzun, qısa və sair, fərq həmin dövrü necə başa vurmaqdadır. Həyatın mənası illərin sayında deyil, necə yaşanmasındadır. Ömür var ki, günü əsrə bərabər, cild-cild kitablara sığmaz. Belə əzəmətli məqam sahiblərindən, vaxtdan uca durmağı bacaran insanlardan biri də istedadlı alim, təəssübkeş türkoloq, ictimai xadim Aydın Məmmədovdur. O özünün dəst-xətti, yaradıcılıq üslubu, elmi istiqaməti, şəxsi mövqeyi, nüfuzu ilə seçilən şəxsiyyətdir, bütöv bir insandır. Mənalı, yaddaqalan, gərəkli ömür sürən tənqidçi, dilçi, siyasətçi, nəinki ixtisası üzrə, habelə bir sıra başqa sahələrdə də professional şəxs, rasional bir aydındır.

Aydın Məmmədov 1944-cü ildə Şəkinin Kiş kəndində doğulub. Qonşu Oxud kənd orta məktəbini qızıl medalla bitirmişdi. Bütün ömrünü doğma Azərbaycanın tərəqqisinə, xalqının elmi, mədəni və siyasi dirçəlişinə həsr edib. Orta məktəbdə müəllimliyə başlayan Aydın Məmmədov elmi işçi olaraq böyüdü, ictimai xadim kimi ərsəyə çatdı, görkəmli siyasət adamı məqamında həyatdan getdi. Azərbaycan türklərinin bu torpaqda eramızdan çox öncə yaşaması həqiqətini elmi gerçəkliyə çevirməyi bacaran Aydın Məmmədov istər “Sovetskaya turkologiya” jurnalının baş redaktor müavini, istərsə də Bədii Tərcümə Mərkəzinin rəhbəri kimi, SSRİ və bütövlükdə dünya türklərinin bir-birini daha yaxından tanıması, doğmalaşması üçün ölçüyəgəlməz işlər görmüşdür.

Ömrünün təxminən son onilliyini bütünlüklə ictimai-siyasi hadisələrə həsr edən filoloq-alim 1988-ci ilin fevralından başlayan Xalq hərəkatının ön sıralarında ilk günlərdən dayanmışdı. O həmişə tətil edən fəhlələrin, yerli ağalara etiraz edən kəndlilərin, tələbələrin, ziyalıların içərisində, özü də ən narahat, ən ağrılı anlarda görmək mümkün idi. Çevik siyasətçi və ardıcıl demokrat olan Aydın bəyin hadisələrə özünəməxsus münasibəti və şəxsi yozum üslubu vardı.



**MƏNALI, YADDAQALAN, GƏRƏKLİ ÖMÜR SÜRƏN TƏNQİDÇİ, DİLÇİ, SİYASƏTÇİ, NƏİNKİ İXTİSASI ÜZRƏ, HABELƏ BİR SIRA BAŞQA SAHƏLƏRDƏ DƏ PROFESSİONAL ŞƏXS, RASİONAL BİR AYDINDIR**

Güclü məntiqə malik, alovlu natiq Aydın Məmmədov on minlərlə insanı arxasınca aparmağı bacarırdı. Xalqın sevgisini qazanaraq millət vəkili seçilmişdi. Bu vəzifədə milli birlik yaratmaq, azadlıq və demokratiya uğrunda hərəkatımızı düz yolla aparmaq üçün ciddi işlər görürdü. Respublika Ali Sovetinin millətlərarası münasibətlər üzrə daimi komissiyasının sədri idi. Qarabağa Xalq Yardımı Komitəsinin sədr müavini olmuşdu.

Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə seçilmişdi.

1991-ci il aprel ayının 19-da Dilarə Əliyeva ilə birgə avtomobil qəzasında faciəli şəkildə həlak oldu. Öz doğma Kiş kəndində torpağa tapşırılıb.

Aydın Məmmədovun yaxın dostu, ziyalı insan Tofiq Məlikli onunla bağlı xatirələrini dilə gətirir: "Moskvada oxuduğumuz illərdə biz ayrılmaz dost olmuşduq. Bir yerdə işləyir, bir yerdə yeyib-içir, gəzib dolanırdıq. Əlimizdəki pul-paramızı da bir yerdə xərcləyirdik. Nə gizlədim, elə aylar olurdu ki, ikimiz də təqaüdümüzü aldıqdan sonra 15-20 gün "padşahlar" kimi yaşayar, sonralar isə "kəmərləri" əməllicə sıxmalı olardıq. Ara-sıra göndərdiyimiz yazıların qonorarları da, nə hikmətsə, həmişə çətin vaxtlarımızda hayımıza çatardı. Burada Aydının atası Mirsaleh kişinin, mənim anamın da fədakarlığını unutmaq olmaz.

Aydın olduqca səmimi, sədaqətli, mehriban, hər şəkili kimi məzəli lətifələri bitib-tükənməyən bir insan idi. Aspirantlar axşamlar bir araya gələr, gördüyümüz işlərimizdən, siyasi vəziyyətdən, vətənlə bağlı eşitdiklərimizdən söhbət açardıq. Onu da deyim ki, o illər Moskvada Azərbaycandan gələn çox sayda aspirant təhsil alırdı. Aydın olduqca istedadlı bir dilçi idi. O, dissertasiya yazmaq üçün asan mövzu yerinə tamamilə yeni, aktual və orijinal – "Türk dillərində samitlər: anlaut və mövzu yerinə kombinatorika" mövzusunu seçmişdi.

1988-ci ildə "Kitabi Dədə Qorqud"a həsr olunmuş ilk sovet-türk kollokviumunun Bakıda uğurla keçirilməsində də Aydının böyük rolu olmuşdu. Tez-tez gələ bilmədiyim üçün Bakıdakı bir çox təşkilati məsələlərin həllində mənə çox köməyi dəyirdi.

1980-cı illərin axırlarında həyatının ən aktiv dövrünü yaşayırdı. Faciəyə qədərki son üç ildə jurnala rəhbərliklə bərabər, Tərcümə Mərkəzinin müdiri, Azərbaycan Ali Sovetinin deputatı, Milli hərəkatın liderlərindən biri, alovlu televiziya tribunu kimi fəaliyyət göstərmiş və gördükləri işlərlə də Azərbaycanın ədəbi



## AYDIN MƏMMƏDOV BÜTÜN ÖMRÜNÜ DOĞMA AZƏRBAYCANIN TƏRƏQQİSİNƏ, XALQININ ELMİ-MƏDƏNİ, İCTİMAİ-SİYASİ DİRİLİŞİNƏ HƏSR EDİB, GETDİ

və siyasi həyatında, yeni ictimai şüurun formalaşmasında önəmli rol oynamışdır. Onun 47 yaşında, ömrünün parlaq çağında avtomobil qəzasında ölümü yalnız yaxınları, dostları üçün deyil, bütün cəmiyyətimiz üçün bir itki idi".

Dilçi, tənqidçi Aydın Məmmədovun "Son giley" kitabı kitabsevərlər üçün bir töhfədir. Yazarın digər sanballı əsərlərində olduğu kimi burada da maraqlı və yeni faktlarla zəngin məlumatlar var. Kitab dalğalar, burulğanlar arasında çarpışa-çarpışa yaşadığımız dövrləri - 1988-ci il və sonrasını, dövlət olaraq müstəqillik qazandığımız zaman kəsiyini əhatələyir.

Aydın Məmmədov bütün ömrünü doğma Azərbaycanın tərəqqisinə, xalqının elmi-mədəni, ictimai-siyasi dirilişinə həsr edib, getdi.

Bu dünyaya gələrkən acılı-sevincli, uğurlu-uğursuz, rahat-əngəlli bir həyat yolu keçirik. Nəhayət, uzun ömür yolunun sonuna yaxınlaşanda, yaşadıqlarımızı beynimizdən keçirib öz-özümüzə hesab veririk. "Nələri etdik, edə bilmədik, kimlərlə yol yoldaşı olduq, kimləri itirdik, nə qazandıq" sualına cavab verməyə çalışırıq. Milli hərəkatın liderlərindən biri, gördüyü işlərlə ölkənin ədəbi və ictimai-siyasi həyatında, ellik şüurun formalaşmasında önəmli roluna canlı şahidlik etdiyimiz Aydın Məmmədov 47 illik qısa ömür yolunda adını əbədi, unudulmaz adlar sırasına yazmağı bacardı. Əziz xatirəsini böyük ehtiram və rəhmətlə anır, bu kiçik yazını Xalq şairi Sabir Rüstəmxanlının ona ithaf elədiyi şeirin iki bəndi ilə tamamlayırıq:

*Yarıldı yerin köksü - əbədiyyət qapısı,*
*Qəbiristanlıq yolları dolub-daşdı adamla.*
*Ağ kəfənə çiləndi ağ buludun göz yaşı*
*Baharın ilk yağışı...*
*cəmi beş-altı damla!*

*Yaşıla çalan gözlər, gizli qəm burulğanı,*
*Ölümün o üzündən yenə bizi salamlar!*
*Deyirlər, millətimiz göyərəcək içindən*
*Suyunu Tanrı versə -*
*cəmi beş-altı damla...* ❖

**Aynurə Əliyeva**